# MÜBARİZ KEŞİKDƏ

31 oktyabr 2019-cu il
Cümə axşamı
№ 42 (3457)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA QOŞULMAMA HƏRƏKATINA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLİB



Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb.

"Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə iştirak edən Belarus parlamenti Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonu, Sudanın Prezidenti Abdul-Fattah Al-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qellehi, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiyanın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşılayıb.

Dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşünü açaraq təşkilata üzv bəzi ölkələrin dünyasını dəyişən keçmiş dövlət və hökumət başçılarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif edib.

Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür edib. Maduro Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin gücləndirilməsinə xidmət göstərdiyini deyib və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan edib.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verilib.

Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söyləyib.

Sonra BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış edib.

BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlo çıxış edib və Baş katib Antonio Quterreşin müraciətini oxuyub.

Zirvə Görüşü "77-lər qrupu" təşkilatının sədri Riyad Mənsurun və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışları ilə davam edib.

Çıxışlardan sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sessiyasını bağlı elan edib.

Fasilədən sonra Prezident İlham Əliyevin sədrliyi ilə davam edən Zirvə Görüşündə Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamad, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelleh, eləcə də digər dövlət və hökumət başçıları çıxış ediblər.

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyafətdə iştirak ediblər.

Dövlətimizin başçısı rəsmi ziyafətdə çıxış edib.

Rəsmi ziyafət konsert proqramı ilə davam edib.

***Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 25-də Heydər Əliyev Mərkəzində olublar.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva qonaqlarla görüşüb.***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ VƏ AĞDAŞ RAYONLARINA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonuna gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyevə son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olub.

Oktyabrın 28-də Qəbələ rayonunda 110/35/10 kilovoltluq "Qəbələ" elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib.

Azərbaycan Prezidenti yarımstansiyada yaradılan şəraitlə tanış olub, sonra Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının, Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun açılış mərasimlərində iştirak edib.

Dövlətimizin başçısı oktyabrın 28-də Ağdaş rayonuna gəlib.

Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdaş şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Ağdaş rayonunda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Prezidenti avtomobil yolunun, Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimlərində iştirak edib.

Həmin gün Ağdaş Telekommunikasiya Qovşağının inzibati binasının da əsaslı təmirdən sonra açılışı olub.

Azərbaycan Prezidenti açılışda iştirak edib.

Oktyabrın 28-də Ağdaşda Biyan Sənaye Parkının açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib.

**Oktyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev akademik Akif Əlizadəni qəbul edib və ona təltif olunduğu 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.**

❖❖❖❖❖

***Ölkə rəhbərimizin oktyabrın 24-də Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş Ramiz Ənvər oğlu Mehdiyevin bu vəzifəyə təsdiq edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 24-də Vyetnam Sosialist Respublikasının vitse-prezidenti xanım Danq Thi Nqok Thinhin, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirinin, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haenin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel, Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşüb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 24-də Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Dilarə Bağır qızı Seyidzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Prezident zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 26-da Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelkader Bensalah, Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Esvatininin Kralı Əlahəzrət III Msvati, Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhan ilə görüşüb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 26-da Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Liviyanın Baş Naziri Faiz Saracı, Banqladeş Xalq Respublikasının Baş Naziri xanım Şeyx Hasinanı, BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bandeni, BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlonu qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 29-da Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 29-da "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib**

# AZƏRBAYCAN DA, ONUN POLİSİ DƏ LİDERLƏR SIRASINDADIR

***"Mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri əsasında hazırlanıb dərc edilmişdir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni, dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir".***

**Bu sözləri ölkə başçımız cənab İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə deyib.**

*Bax səh.3.*

# BU XALQ MÜDRİKDİR, ONU ALDATMAQ OLMAZ!

Bu gün özünü müxalifət adlandıran, əslində, qaragüruhçu qüvvələr öz köhnəlmiş vərdişlərindən, bayağı ritorikalarından əl çəkməyib, düz, 30 il əvvəl olduğu kimi, insanları küçələrə çağırırlar... "Uzaq sahillərdə" filmində deyildiyi kimi: "Yenə də həmin dalğa, həmin koordinat"...

*Bax səh.2.*

# BU XALQ MÜDRİKDİR, ONU ALDATMAQ OLMAZ!

*Bu gün özünü müxalifət adlandıran, əslində, qaragüruhçu qüvvələr öz köhnəlmiş vərdişlərindən, bayağı ritorikalarından əl çəkməyib, düz, 30 il əvvəl olduğu kimi, insanları küçələrə çağırırlar... "Uzaq sahillərdə" filmində deyildiyi kimi: "Yenə də həmin dalğa, həmin koordinat".*

*Görəsən, "nə istəyirik?" sualına onların özlərinin cavabı varmı? Əminəm ki, yoxdur. Son 30 ilin təcrübəsindən, gördükləri, izlədikləri, şahidlik etdikləri hadisələrdən ibrət götürənə də oxşamırlar. Elə olsaydı görərdilər ki, artıq qanunsuz mitinq və küçə yürüşləri vaxtı çoxdan keçib. Azərbaycan insanı ağı-qaradan, pisi-yaxşıdan dərhal ayırd etməyi bacarır. Bu gün dövlətimiz də daha qüdrətlidir, sarsılmazdır. Üstəlik, milyonların dəstəyini qazanmış, böyük siyasət məktəbi keçmiş, kreativ, müasir düşüncəli, əsl liderlik keyfiyyətlərinə malik qüdrətli rəhbəri var.*

*Aydındır ki, ölkəmizin uğurlu inkişafını, nüfuzunu qəbul etmək istəməyən o qüvvələrin əsas hədəfində Azərbaycan gəncliyidir. Amma başa düşmürlər ki, bugünkü gənclik artıq yetkinləşib, dünyanı gəzmiş, yüksək təhsil görmüş intellektli, vətənpərvər bir qüvvəyə çevrilib. Onun iradəsinə təsir etmək, doğru olmayanı, cəfəng ideyaları sırımaq mümkün deyil.*

*Bu gün xalqı, xüsusən gəncləri şəhərin mərkəzində qanunsuz yürüşlərə, mitinqlərə çağıran, insanları polislə üz-üzə qoymaq, vətəndaş qarşıdurması yaratmaq istəyənlərin məqsədi aydındır. Bəziləri isə hətta asayişi mühafizə edən polislə açıq qarşıdurmaya nail olub, gələcəkdə saxta "siyasi mühacir" arayışının satılması üçün foto-faktlar toplamaqla məşğuldurlar....*



*Biz, illərlə dövlətə, Vətənə şərəfli xidmət edən, cinayətkarlıqla mübarizədə, asayişin təmin olunmasında, torpaqlarımızın və dinc əhalinin müdafiəsində dəfələrlə təhlükələrlə üz-üzə gələn, sağlamlığımızı itirən polis veteranları da dağıdıcı müxalifətin niyyətlərini yaxşı başa düşürük. Bu cür bəd niyyətlərin və əməllərin ağrısını, acısını təəssüf ki, həyatımızda görmüş və yaşamışıq. Ona görə də üzümüzü həmvətənlərimizə tutub deyirik: - "Bizə yaxın-uzaq, bizimlə həmsərhəd ölkələrə, sivil bildiyimiz dövlətlərə diqqətlə baxın, son dövrlər tüğyan edən qanlı qarşıdurmalara, zorakı və qanunsuz mitinqlərə, yürüşlərə nəzər yetirin. Qaragüruhun özbaşınalığından sonra yaranmış xarabalıqdan başqa hansı mənzərəni görürsünüz?!*

*Gəlin, hamılıqla qazandığımız dəyərləri elə hamılıqla da qoruyaq. Azərbaycanın daha xoşbəxt gələcəyinə daha fəal dəstək olaq, gənc, müstəqil ölkəmizin adına kölgə salmağa çalışanlara fürsət verməyək, Qarabağ düyününün açılmasına ciddi şanslar yarandığı bir dövrdə buna böyük Azərbaycanımızın böyük ehtiyacı var.*

*Sonda Mirzə Cəlilin bir sözünü xatırlamaq istərdik: Sözünü həm də o kəslərə de ki, sənə qulaq asmırlar.*

*Məncə, şərhə ehtiyac yoxdur...*

*Fərhad Süleymanov,*
*DİN Veteranlar Şurasının sədri,*
*istefada olan polis polkovniki*

# NAZİR GÖSTƏRİŞ VERDİ...



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun soydaşlarımızın hüquqlarının qorunması və onlara qarşı törədilən cinayətlərin üstünün açılmasına dair göstərişi əsasında Ukrayna Milli Polisində görüş keçirilib.

Daxili İşlər Nazirliyinin Azərbaycanın Ukraynadakı səfirliyinin nəzdindəki nümayəndəsi, polis polkovniki Şahin Qocayev Milli Polisin birinci müavini, polis generalı Yevqen Koval ilə görüşərək soydaşlarımıza qarşı, o cümlədən Kiyevdə Azərbaycan vətəndaşı Cavid Hacıyevi qətlə yetirən cinayətkarların tezliklə tutulmasının vacibliyini vurğulayıb.

Yevqen Koval azərbaycanlılara qarşı törədilən cinayətlərin açılmasının, axtarışda olanların tutulmasının nəzarətdə saxlanıldığını, problemlərin tezliklə həll olunacağını qeyd edib.

Görüşdə, həmçinin qarşılıqlı səfərlərin təşkili, ikitərəfli münasibətlər, səmərəli əməkdaşlığın qurulması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Müzakirələrdə Ukrayna Milli Polisinin Cinayət-Axtarış Departamentinin rəisi, polis polkovniki Vadim Dzyubımski və kollegiyanın üzvləri də iştirak ediblər.

**AZƏRtac**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, Demokratik Qüvvələrin Milli Şurası adlandırılan quruma daxil olan partiya və birliklər, o cümlədən özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli tərəfindən oktyabrın 19-da "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nümayişkəranə və kobud şəkildə pozularaq Bakı metropoliteninin "28 May" stansiyasının önündə nəqliyyatın hərəkətinin iflic olmasına, ətrafdakı insanların haqlı narazılığına, ərazidə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin iş rejiminin və bütövlükdə ictimai asayişin pozulmasına səbəb olan qanunsuz aksiya keçirilməsinin və təxribat xarakterli digər əməllərin qarşısı alınaraq 60 şəxs barəsində inzibati xətalar haqqında qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülmüşdür.

AXCP rəhbərliyi və aksiyanın təşkilatçıları tərəfindən qanunla qadağan edilmiş yerdə planlı şəkildə təşkil olunmuş həmin mitinqlər zamanı polisin qanuni tələblərinə məhəl qoyulmamaqla hüquqazidd əməllərin davam etdirilməsi ətrafdakı insanların haqlı narazılığına gətirib çıxarmışdır.



Respublikada sabitliyin pozulması məqsədi güdən bu cür qanunsuz hərəkətlərin qarşısının qətiyyətlə alınacağı barədə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, son günlər Əli Kərimli və Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbərliyində təmsil olunan digər şəxslər, habelə ölkə ərazisində əvvəllər müxtəlif cinayətlər törətməklə saxta yollarla xarici ölkələrdə sığınacaq almış axtarışda olan və ermənipərəst xarici dairələrin idarə etdiyi və maliyyələşdirdiyi bir qrup satqınlar tərəfindən sosial şəbəkələrdə və internet informasiya ehtiyatlarında müxtəlif profillər, o cümlədən "AzerbaycanSaatı", "Turan Tv", "AzerFreedom TV", "Meydan Tv", "OsmanqızıTv" və digər kanallar vasitəsilə noyabrın 2-də Bakı metropoliteninin "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə yenidən çağırışlar edilir. Həmçinin, oktyabr ayının 19-da öz peşə borcunu yerinə yetirib ictimai asayişin pozulmasının qarşısını almış polis əməkdaşları haqqında fərdi məlumatlar paylaşılaraq onların işgüzar nüfuzunu, şərəf və ləyaqətini ləkələyən, asayiş keşikçilərinə qarşı sosial ədavət və düşmənçilik hisslərinin oyadılmasına yönəlmiş təbliğat aparılır.

Qeyd olunmalıdır ki, Milli Şura adlandırılan qurumun noyabrın 2-də mitinq keçirmək barədə müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılaraq "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsinin qadağan edilməsi nəzərə alınmaqla mitinq üçün "Neftçi" idman klubunun Lökbatan qəsəbəsindəki təlim-idman bazası təklif edilmiş, lakin təşkilatçılar həmin tarixdə yenə də metropolitenin qarşısında razılaşdırılmamış qanunsuz aksiya keçirəcəkləri barədə məlumatlar paylaşmışlar.



Bütün bunlar bir daha göstərir ki, xalq arasında nüfuzu, sosial dayağı olmayan və siyasi mübarizənin sivil metodlarını qəsdən inkar edən radikal müxalif qüvvələr məhz qanunla qadağan olunan yerlərdə küçə yürüşləri, mitinqlər, piketlər keçirməyə çağırışlar etməklə insanları dövlət orqanlarının qanuni tələblərinə tabe olmamağa, qarşıdurma yaratmağa, faktiki olaraq zorakılıqlar törətməyə, asayişi və sabitliyi pozmağa təhrik edirlər.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Azərbaycan dövlətçiliyinə qarşı açıq-aşkar düşmənçilik mövqeyində duran cılız bir müxalif qrupun istənilən qanunazidd əməllərinin qarşısının qətiyyətlə alınacağını diqqətə çatdıraraq bəyan edir ki, Milli Şura adlanan quruma daxil olan partiya və birliklər, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli və həmin partiyada təmsil olunan digər şəxslər qanunsuz kütləvi aksiyaya çağırışları, zorakılığı və qəddarlığı təbliğ edən təxribat xarakterli hərəkətləri ilə əslində Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsi kimi ekstremist bir yolu seçdiklərini təsdiq edirlər. Onlara bir daha xəbərdarlıq edilir ki, Bakı Şəhər İcra Hakimiyyətinin təklif etdiyi yerdən kənarda toplantı təşkil ediləcəyi, ictimai qaydanı, o cümlədən hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin dinc həyatını, rahatlığını, nəqliyyatın, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini pozan qanunsuz hərəkətlərə yol veriləcəyi təqdirdə bütün məsuliyyət üzərlərinə düşəcəkdir.

Eyni zamanda, qanunvericiliyin pozulmasına görə "Siyasi partiyalar haqqında" Qanunun 4-cü, 12-ci və 16-cı maddələrinə uyğun tədbirlərin görülməsi, hüquqazidd əməllər törətmiş şəxslərin isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə məsuliyyətə cəlb olunması təmin ediləcəkdir.

*30 oktyabr 2019-cu il.*

# ÖLKƏYƏ DEYİL, ÖZGƏYƏ XİDMƏT EDƏNLƏR

**Deyirlər ki, mitinq keçirmək millətin haqqıdır. Millətin haqqıdır və bundan sizə nə?**

**Sərbəst toplaşmaq azadlığımızı kimsə bizim əlimizdən almır, ona qadağa qoymur. Ancaq adını "müxalifət" qoyan "qüvvələr" bir zamanlar "narıncı"lardan sonra isə "bahar"lardan götürdükləri nümunələri bir neçə gün bundan öncə Azərbaycanda tətbiq etmək istədilər. Alınmadı və alınmayacaq da.**



Açıqdan-açığa ölkəmizi tənqid edən, xaosa sürükləyən qüvvələrlə şəxsi münasibətlər qurmağın, ona guya Azərbaycanda baş verən "haqsızlıqları" "acıyaraq" danışıb kömək istəməyin bir adı var: Xəyanət! Doğulduğun torpağa, enməzliyə qalxan olan bayrağına, keçmişinə və gələcəyinə xəyanət. Məlum gücün adamından kömək istəyən, sözsüz ki, onun tapşırıqlarını canla-başla da yerinə yetirər. Tapşırığın hədəfi isə müstəqilliyimizi əldə etdiyimiz illərdən bəri dəyişməyib: Azərbaycanı asılı salmaq, xalqının iradəsini qırmaq, onu Ermənistan kimi əl quzusuna döndərmək.

Bu gün Azərbaycanı 90-cı illərə qaytarmaq, bizi yenə də torpaq itkiləri ilə üzbəüz qoymaq, minbir can bahasına qazandığımız müstəqilliyimizi kölə həyatına dəyişməyə kodlaşdırılmış "xalq fədailəri" dünyanı nizamlı şahmat gedişi ilə mat qoyan Liderimizin siyasəti qarşısında məğlub duruma düşdüklərini sinirə bilmirlər.

Ötən illər ərzində davamlı basqılarla, siyasi oyunlarla hədələnsək də Azərbaycan öz quru və hava sərhədlərini qoruyub kimsənin poliqonuna çevrilmədi, əksinə, müstəqil bir dövlət modelini daha nümayişkaranə sərgilədi. Diplomatik uğurlarımızın davamı üç il bundan öncəki apreldə daha möhtəşəm oldu və burnu əzilən düşmən duruş gətirə bilməyəcəyini görüb okeanı keçməyə cürət etməsə də Moskvaya üz tutdu. O zaman xalqın "halına acıyan", onun vəkili kimi sosial şəbəkələrdə boğaz cıranların səsi nədənsə batdı.




Müşahidə etmişəm, özünü guya fövqəl bir güc kimi meydana atmaq istəyən müxalifət, təəssüflər olsun ki, ölkəmiz tarixi bir diplomatik uğura imza atanda sevinmirlər. Məlumdur, onları idarə edən güclər həmin an matəm libasını geyinirlər və "beşinci kolon" da bu "kədəri" onlarla bölüşür.

Bütün bu olanlar həm də ona görə baş verdi ki, cənab Prezidentin Valdayda Paşinyana cavabından, Aşqabadda 30 ilə yaxın bir dövr ərzində dünyanın görməzlikdən gəldiyi, erməniyə daydaylıq edib, "qorxma-qorxma" deyən supergücün qarşısında həqiqəti bir daha xalqına güvənib dediyi fikirlərdən qorxuya düşdülər. Kimlər? Bunu 19 oktyabrda hamı gördü...

Öz sözünü dananları millət heç zaman süfrəsinin başına gətirməz. Düzdür, Azərbaycan adlı "süfrə"-nin başına onlar bir dəfə oturdular və aqibətimizi indi videolardan, sənədli filmlərdən izləyəndə tüklərimiz biz-biz olur. Bu insanlar siyasət, idarəçilik, liderlik üçün yox, sərhədlərimizin o üzündən gələn tapşırıqları yönləndirmək üçün doğulublar, daha doğrusu, ixtisaslaşıblar.



Bu illərdir ki, beləcə da davam edir və "Yel qayadan heç nə aparmır". Və ya karvanlar hələ də öz yoluyla keçir…

Yenə də dünyanın gözü Azərbaycana dikildi bu günlərdə. Daha bir siyasi uğura imza atdıq. Qoşulmama Hərəkatına üzv dövlətlər, hansılar ki, onların çoxu terrordan, siyasi çaxnaşmalardan əziyyət çəkirlər, ölkəmizə gəldilər və qısa bir zaman kəsiyində qazandığımız iqtisadi və siyasi uğurların şahidi oldular.

Yenə də yeni dostlar qazandıq. Dostu dürüstlüklə, ona həqiqəti deməklə və göstərməklə necə qazanmağın formulunu möhtərəm Prezidentimiz bir daha dağıdıcı müxalifətə göstərdi. Xaricdə oturub doğulduğu Vətəni söyənlərə isə göstərdi ki, xalqın dərdini bilmək üçün gərək onun içində olasan, ondan biri olasan.

Hər an hədəfdəyik, çünki inkişaf edirik. Buna görə də bizimlə hesablaşmağa məcburdurlar. Guya ölkəmizdə insan hüquqları və azadlıqları pozulur, azlıqlara ögey münasibət var deyənləri Xəlil Rza Ulutürkün bu misraları ilə susdururuq:

***Ana torpağımda hər bir elata,***
***Ləzgiyə, lahıca, udinə, tata,***
***Yer boyda, göy boyda məhəbbətim var...***

Biz birgəyaşayışın sülh, əmin-amanlıq şəraitində yaşamağın necə olduğunu dünyaya öyrədən xalqıq və bundan qürur duyuruq.

Ön cəbhədə əsgərimiz, arxa cəbhədə polisimiz sapı özgədən olanları çox narahat edir. Onlar güclü xalqın güclü ordusunu və asayişin keşiyində sayıq dayanan, insanların canını, malını qoruyan polisimizi nə yolla olursa-olsun zəiflətmək, bir sözlə, bu xalqdan qoparmaq istəyirlər. Bu isə mümkün olmayacaq, çünki Xalq özü onu qoruyur, dövlət onlara güvənir, etibar edir.

*Hafiz Təmirov,*
*polis mayoru*

**“Mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri əsasında hazırlanıb dərc edilmişdir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni, dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir”.**

**Bu sözləri ölkə başçımız cənab İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə deyib.**

Əlbətdə ki, sabitlik olmayan yerdə heç bir inkişaf, iqtisadi artım ola bilməz.

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə ölkəmiz bu gün MDB məkanında birinci, orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir.

Polisimiz xalqın, dövlətin sadiq keşikçisidir, onun, etimadına, inamına layiq xidmət aparır.

Əslində, elə polisə olan hücumların, qarayaxma və çirkin böhtan kampaniyasının da həm də bundan qaynaqlandığını deyə bilərik. Geyimindən, intellektindən, texniki təminatınadək, malik olduğu təcrübədən, yüksək peşəkarlıqdan tutmuş həm dövlətin, həm də əhalinin tam əksəriyyətinin rəğbətinədək, hətta xaricdəki düşmənlərinin də etirafınadək böyük bir qazanca sahib olan Azərbaycan Polisi onu gözü götürməyənlərdə qısqanclıq yaradır. İllər boyudur həm də belə bir səddi keçə bilməyən dağıdıcı qüvvələrin əlacı ona qalıb ki, bu duruşa, bu mərdanəliyə çamur, çirkab atsınlar.

Təmiz su çirkab götürməz, təmiz su çirkabı, tullantını elə çirkli sahilə atar.

Xalqımızın sağlam düşünən, vicdanlı insanlarının yadında cənab Prezidentimizin bu sözləri də yaxşı qalıb: ***“Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edirlər. Mən görülmüş bu işləri yüksək qiymətləndirirəm və bilirsiniz ki, polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm”.***

# AZƏRBAYCAN DA, ONUN POLİSİ DƏ LİDERLƏR SIRASINDADIR

Ölkəmizdə əlverişli mühitin formalaşmasında daxili sabitliyin dayanıqlı təmini və qorunub-saxlanmasında hüquq-mühafizə orqanlarının gecə-gündüz apardığı sayıq, peşəkar xidmətinin əhəmiyyətli rolu var.

Bu gün dövlətimizdə sabitlik qorunur, cinayətkarlıqla mübarizə, insanların hüquq və azadlıqlarının qorunması həm də Azərbaycan Polisi tərəfindən təmin olunur. Bütün bunların nəticəsidir ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı – 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı.

***Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı***

# DEVİZ BELƏDİR: “SAĞLAM HƏYAT TƏRZİNİ SEÇ!”




**Zərdab Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun 4 ümumtəhsil müəssisəsində "Narkomanlığın cəmiyyətə və insan sağlamlığına təsiri", "Erkən nikah problemləri" və "Dini radikalizm" mövzularında şagirdlərlə maarifləndirici profilaktik tədbir keçirilib.**

Artıq ənənə halını alan və əhali tərəfindən rəğbətlə qarşılanan tədbirdə RPŞ-nin rəisi, polis mayoru Azər Əfəndiyev, Rayon İcra Hakimiyyətinin, Təhsil Şöbəsinin təmsilçiləri, eləcə də həmin məktəblərin şagirdləri və pedaqoji kollektivləri iştirak ediblər. Çıxış edənlər bəşəriyyətin ən böyük bəlalarından olan narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizmində yaratdığı fəsadlardan, narkomanlığın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə vurduğu zərərlərdən, erkən nikahların yaratdığı problemlərdən, ölkəmizdəki dövlət-din münasibətlərindən, islam dininin əsl mahiyyətindən, gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi üçün həyata keçirilən tədbirlərdən bəhs ediblər.

Daha sonra mövzularla bağlı maarifləndirici videoçarx nümayiş etdirilib.



Tədbirdə şagirdlərə “Sağlam həyat tərzini seç” və “Erkən nikahlara və qadınlara qarşı zorakılıqlara yox deyək!” adlı bukletlər də paylanılıb.

***Anar Qafarov, polis baş leytenantı***

**“Bu gün hər kəs narkomaniya ilə mübarizədə səfərbər olmalıdır. Əlbəttə ki, ön sıralarda polisi görəndə ümidlənirik. Narkomaniya, erkən nikah və dini radikalizmlə bağlı polisin maarifləndirmə tədbirləri çox faydalıdır. Həm də bu zaman valideynlər də maariflənir, öz övladlarının gələcəyinə biganə yanaşmağın hansı fəsadlara gətirib çıxaracağını vaxtında anlamağa başlayırlar.”**

Bu fikirləri Qubadlı RPŞ-nin təşkilatçılığı ilə Sumqayıtda yerəşən Qubadlı Rayon Təhsil Şöbəsinin akt zalında Fərcan, İşıqlı və R.Əlirzayev adına Xocahan kənd orta məktəblərinin yuxarı sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbirdə Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Azər Qarayev dedi.

Narkomaniyanın fəsadlarından, onun insanı fiziki və psixoloji məhvindən bəhs edən videoçarxın nümayişindən sonra “Əgər gələcəyimizi sağlam, güvənli və etibarlı əllərdə görmək istəyiriksə, o zaman hər birimiz üzərimizə düşən vətəndaş məsuliyyətini dərk etməliyik”,- deyərək çıxışına başlayan Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Bəhruz Cabbarov bildirdi ki, bu gün öz ölkəsinin gələcəyini düşünən hər bir kəsin əsas məqsədi Vətənimiz üçün qanını-canını fəda edən qəhrəman övladlarımızın davamçılarını yetişdirmək olmalıdır.

Qeyd olundu ki, ölkəmizdəki sabitliyi gözügötürməyənlər siyasi məqsədlərinə çatmaq üçün gəncliyi öz oyunlarına alət etməyə fürsət axtarır, maliyyələşdirdikləri sosial şəbəkələr vasitəsilə çağırışlar edir, dövlət, xüsusən də hüquq-mühafizə orqanlarına qarşı qarayaxma kampaniyaları aparır, buna nail olmayanda isə narkomaniya adlı bəlaya onları düçar etməklə kriminogen durumu dəyişməyə, cinayətkar əməllərin çoxalmasına çalışırlar.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq Abbasov ölkə rəhbərimizin gənclərə qayğısına diqqət çəkdi.



# “GƏNCLİYİN OVU”NA ÇIXANLAR...



RPŞ rəisinin müavini, polis polkovnik-leytenantı İlham Rəsulov, NMQ-nin baş əməliyyat müvəkkili, polis mayoru Vahid Kərimov, YYÇPİQT-nin inspektoru, polis leytenantı Rauf Qələndərov, Rayon Təhsil Şöbəsinin müdir müavini Kamil Əhmədov, Rayon Səhiyyə Şöbəsinin əməkdaşı Mətanət Həbibova narkomaniyanın fiziki və psixoloji asılılıq yaratmaqla adamı dəyərlər sistemindən məhrum etdiyini, narkomanların potensial cinayətkarlar və ən qorxulu infeksion xəstəlik daşıyıcıları olduğunu diqqətə çatdırdılar.

Polis polkovniki B.Cabbarov ailə, məktəb və polis vəhdətinin davamlı olacağı təqdirdə, keçirilən belə tədbirlərin təkcə “ağ ölüm”lə mübarizədə deyil, şagirdlərin, yeniyetmələrin sağlam, savadlı, vətənpərvər böyüməsinə də təkan verəcəyinə inamını ifadə etdi.

***Hafiz Təmirov, polis mayoru***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, NÖVBƏTÇİ HİSSƏLƏRİ İDARƏETMƏ XİDMƏTİNİN "102" XİDMƏTİ-ZƏNG MƏRKƏZİNDƏ VAKANT OLAN KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı şəhərində yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali hüquq təhsilli və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə ilkin olaraq 750 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2019-cu ilin oktyabr ayının 25-dən noyabr ayının 10-dək **mia.gov.az./?/az/content/29915/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Əlavə məlumat üçün əlaqə telefonları:(012) 590-97-52 şəhər, 17-52 daxili.

***Daxili İşlər Nazirliyi***

# GÖRDÜKLƏRİM, EŞİTDİKLƏRİM...

Polis sahə inspektorları insanlarla daha sıx təmasda olur, onların problemlərini, qayğı və çətinliklərini daha tez görür, tez də köməyə çata bilirlər.



***Samux RPŞ-nin sahə inspektorları-polis baş leytenantı Sovğun Muxtarov (solda), polis leytenantı Kamil Ələkbərov, Post-Patrul Xidməti əməkdaşlarından Bayram Məmmədov, Eşqin Quliyev və Feyruz Yusifov elə özləri də sıx-sıx görüşür, təcrübə, fikir mübadiləsi aparırlar.***

*****



Bu günlərdə Tərtər RPŞ-nin əməkdaşları qanunsuz saxlanılan 9 ədəd silah götürüblər. İl ərzində isə 17 ədəd döyüş sursatı, 1 ədəd avtomat, 2 güllə darağı, 3 ədəd qumbara və s. aşkarlanıb.

***Polis kapitanı Qurban Allahverdiyev və polis serjantı Sənan Əliyev bu işdə daha çox fərqləniblər.***

*****



***Tərtər RPŞ Post-Patrul Xidmətinin əməkdaşları - polis serjantları Ülvin Aslanov, Bəhruz Nəcəfli, Amal Gözəlov, Taleh Hembətov və Pərviz Əlizadə, necə deyərlər, insanlara təhlükədən daha yaxın olan əməkdaşlardandır.***



***Mətn və fotolar Ü.Muradovundur***

# MARAQ DÜNYASI



**Qələbəlikdən və səs-küydən uzaq, sakit bir ölkə. Necə deyərlər, təbiəti də gözəldir, cəmiyyəti də. Elə isə gəlin, tanış olaq:**

**Nauru** – Avstraliyanın şimal-şərqində yerləşir. Əhalisinin sayı 10 min nəfərdir.

**Montserrat** – Böyük Britaniyanın ada-dövlətidir. Əhalisinin sayı 4-6 min arasında dəyişir. Vulkanları ilə məşhurdur. 1492-ci ildə Xristofor Kolumb kəşf edib.

**Saint Helena** – Atlantik okeanının cənubunda yerləşən bu dövlət 1502-ci ildə kəşf edilib. Əhalisinin sayı 4255 nəfərdir. Napoleon bu adaya sürgün edilmişdi.

**Falkland adaları** – Daxili işlərində sərbəst olsa da, xarici siyasətində Böyük Britaniyaya tabedir. Əhalisinin sayı 2932 nəfərdir. Əsasən, heyvandarlıq və balıqçılıqla məşğuldurlar.

**Niue** – Sakit okeanın cənubunda yerləşən bu ada-dövlətə getmək təbiətinin çətinliyi ucbatından az qala mümkünsüzdür. Yalnız Yeni Zelandiyadan və Avstraliyadan hava yolu ilə getmək olar. Əhalisinin sayı 1624 nəfərdir.

**Tokelau** – Yeni Zelandiyaya tabe ada-dövlətdir. Əhalisinin sayı 1411 nəfərdir. 1948-ci ildə qurulan dövlət monarxiya üsulu ilə idarə olunur.

**Pitcairn adaları** – Havay adalarının 3500 kilometr məsafəsində yerləşir. Burada cəmi 50 nəfər yaşayır. Əvvəllər bu ada-dövlət dəniz quldurlarının məskəni olub.

**Sealand** – Əhalisinin sayı cəmi 27 nəfərdir. 550 kvadratmetr ərazisi var. İkinci Dünya müharibəsi ərəfəsində İngiltərə hökuməti tərəfindən mayak kimi inşa edilib. Rəsmi dili ingilis dilidir.



***Ruhiyyə Əliyeva***

# GÜCLÜLƏR HƏR ZAMAN SEÇİLİR

**Onların həm futboldan, həm də voleyboldan DİN birinciliyində qalib olmalarını bilsək də bu barədə fikirlərini "Mübariz keşikdə" ilə bölüşməmələri daha çox diqqətimizi çəkdi.**

Düzü, dəfələrlə belə olub. DİN Baş Mühafizə İdarəsinin komandasının əldə etdiyi uğurları özlərindən xəbərsiz qəzetimizdə dərc etmişik. Bu dəfə qələbələrin sorağı ilə gedib qaliblərlə görüşüb-söhbətləşdik. Yorğunluqları üz-gözlərindən hiss olunsa da bunu biruzə verməməyə çalışırdlar.



**Baş idarə rəisinin böyük köməkçisi, polis polkovniki Akif Qorçubəylinin:** "Günün istənilən vaxtında, saat neçə olursa-olsun, polis hər zaman xidmət başındadır. Bunu hər kəs görsə də, təəssüflər olsun ki, bu gün polisin Vətən qarşısında tarixi xidmətlərini danan, cinayətkarlıqla apardığı qətiyyətli mübarizəni görməzlikdən gələnlər də var. Gələcəyimizi təhdid edən bəlaları gəncliyimizə tanıtmaq, onun hansı fəsadlara yol açdığını göstərmək üçün yolunu məktəblərə, əmək kollektivlərinə, hətta baxçalara da salır asayiş keşikçiləri..."

Polisimiz "Üçrəngli bayrağınla məsud yaşa",- deyərək Vətənimizi idmanda, təhsildə əldə etdiyi uğurlarla sərhədlərimizdən kənarda da təbliğ edir. Milli kimliyini və vətəndaş yanğısını kimlərəsə, nələrəsə qurban vermir. Bunları sadalamaqda məqsədim heç də görünən dağa bələdçilik etmək deyil.

Vətənimizin atributlarını üzərində qürurla daşıyan DİN Baş Mühafizə İdarəsinin əməkdaşları da görəvlərinin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Bir vaxtlar yaddaşlarda özünə yer eləyən "gecə milisi" ifadəsi leksikonumuzdan, demək olar ki, silinib. Çünki geyindiyi mundir, hansı xidmət sahəsində çalışmasından asılı olmayaraq, onun üzərinə böyük bir məsuliyyət qoyur.

Mühafizə etmək məsuliyyətdir. Bunun üçün hər şeyə hazır olmalısan, necə deyərlər, sonunu düşünən qəhrəman olmaz. "Vətəndaşa təhlükədən daha yaxın olmaq" isə bizim alın yazımızdır" fikirləri bu qocaman qurumun keçdiyi tarixi yola həm də bir ekskurs idi.



Gənclərə yaradılan şəraitin nəticəsi qazanılan uğurlardır. DİN birinciliklərində qələbə uğrunda mübarizə aparan idmançılar dünya arenalarında da istər kollektiv, istərsə də təkbətək idman növlərində qazandıqları qələbələrlə Azərbaycanın idman ölkəsi olduğunu dönə-dönə sübut edirlər.

DİN birinciliyində voleybol və futbol yarışlarından qalib kimi ayrılmaq BMİ əməkdaşlarının hazırlıq səviyyəsinin yüksək olduğunun bariz nümunəsidir. Diqqətimizə çatdırıldı ki, oktyabrın 5-də DİN İdman Cəmiyyətində keçirilən voleybol üzrə yarışda 6 komanda iştirak edirdi. Finalda BMİ və BŞBPİ-nin komandaları görüşüb. Qalibiyyət "mühafizəçi"lərin tərəfində olub. DİN Daxili Qoşunlar ilə Polis Akademiyasının komandaları 3-4-cü yerləri bölüşdürüblər. Onu da öyrəndik ki, BMİ-nin komandası 11 ildir ki, voleybol üzrə birinciliyi əldən vermir. **Komandanın kapitanı, Maliyyə şöbəsinin rəis müavini, polis mayoru Orxan Bayramov** hissələrdən yaxşı oyunçuların seçilməsinə, yarışqabağı onların xidmətə cəlb olunmamasına diqqət ayırdığına görə BMİ rəhbərliyinin rolunu xüsusi vurğuladı.

"Biz təcrübəmizə və gücümüzə inanırdıq. Komandamızın üzvləri bu yarışa həm psixoloji, həm də fiziki cəhətdən hazırlaşmışdı. Etiraf edək ki, rəqiblərimiz də güclü idi. Yarışa təcrübəli hakimlər nəzarət edirdi."

Qeyd edək ki, polis mayoru Orxan Bayramov bu yarışda ən yüksək peşəkarlıq nümayiş etdirən oyunçu kimi təşkilatçılar tərəfindən əlavə diploma da layiq görülüb.

Oktyabrın 14-dən 19-dək olan mini-futbol üzrə DİN birinciliyi də maraqlı anlarla yadda qalıb. Qələbə uğrunda mübarizə aparan 7 komadadan finala Əlahiddə Çevik Polis Alayının və BMİ-nin komandası qalıb. Gərgin mübarizə şəraitində keçən yarış heç-heçə bitib. Əlavə vaxtda qalib müəyyən olunmadığı üçün penalti seriyasına start verilib. Bir top hesabı ilə rəqibini üstələyən BMİ komandası çempion titulunu qazanıb.

Polis polkovniki A.Qorçubəyli futbolçuları yarışa hazırlayan **Kadrlar idarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Hüseynağa Mansurovun və Yasamal RMİ-nin bölük komandiri, polis mayoru Çingiz Şahbazovun** zəhmətini xüsusi qeyd etdi.

*Hafiz Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS AKADEMİYASINDA VAKANT OLAN ZABİT VƏZİFƏLƏRİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR

## *MÜSABİQƏ ELAN EDİR*

– Dövlət və hüquq nəzəriyyəsi, Daxili işlər orqanlarında inzibati fəaliyyət, Daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyəti, Mülki hüquq, Cinayət hüququ, Cinayət prosesi və Kriminalistika kafedralarının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin hüquq təhsili üzrə magistr pilləsini bitirmiş mütəxəssislər);

– Dil hazırlığı kafedrasının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini ingilis dili ixtisası üzrə bitirmiş mütəxəsisslər);

– Hərbi kafedranın müəllimi və baş müəllimi (bu vəzifələrə namizəd hərbi təhsil müəssisələrini və ya dövlət ali təhsil müəssisələrini hərbi ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəsisslər);

– İnformasiya təhlükəsizliyi kafedrasının mühəndis-elektronçusu və mühəndis-proqramçısı (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin avtomatika və idarəetmə elektron texnikası, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə magistr pilləsini bitirmiş mütəxəsisslər);

Mühəndis-elektronçu-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri, cari təmiri və servis xidmətləri haqqında bilik və təcrübəyə malik olan mütəxəssislər.

Mühəndis-proqramçı-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri haqqında biliyə malik olan mütəxəssislər.

– Psixoloq (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin bakalavr və ya magistr pilləsini psixologiya və klinik psixologiya ixtisası üzrə bitirmiş mütəxəsisslər);

**– Əyani fakültənin kurs rəisinin müavini və kurs rəisi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif istiqamətləri və hərbi ixtisas istiqamətləri üzrə bitirmiş daxili işlər orqanları əməkdaşları);**

– Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin baş inspektoru (magistratura və doktorantura üzrə), elmi katibi və baş inspektor-korrektoru (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəsisslər);

Müsabiqədə yaşı 35-dən yuxarı olmayan (elmi dərəcəyə malik mütəxəssislər yaşı 40-dək), həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün) və əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

***Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu ilin oktyabr ayının 1-dən noyabr ayının 15-dək http://www.mia.gov.az/index.php?/az/content/29875/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə* bki@mia.gov.az *ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.***

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaqdır.

Daxili işlər orqanları əməkdaşlarına məzuniyyətə çıxarkən və müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə bir aylıq əmək haqqı məbləğində pul müavinəti, DİN-in Tibb İdarəsinin Respublika Hospitalında, poliklinikalarında əməkdaşa və onun ailə üzvlərinə pulsuz tibbi xidmət, DİN-in «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinə yollayışın qiymətinin əməkdaşa 75 faizi, ailə üzvlərinə 50 faizi miqdarında imtiyaz, eləcə də xidmət zamanı şəhərdaxili ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə kimi əlavə güzəştlər verilir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-454-12-78, 590-97-52, 590-92-54.**

***Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Baş Kadrlar İdarəsi***

# RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş qətlin üstü açılıb.

Belə ki, paytaxtın Biləcəri qəsəbə sakini Çiçək Əsgərova oktyabrın 16-da Binəqədi RPİ-nin 6-cı Polis Bölməsinə müraciət edərək həyat yoldaşı Elvin Həbibzadənin oktyabrın 14-də özünə məxsus "BMW" markalı avtomobillə evdən çıxıb getdiyini və geri qayıtmadığını bildirib.

Məlumatla əlaqədar itkin düşmüş şəxsin yerinin müəyyən edilərək tapılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Nəticədə E.Həbibzadəyə məxsus avtomobil Qaradağ rayonunun Qızıldaş qəsəbəsində tapılıb və nəqliyyat vasitəsinə baxış keçirilərkən salonda qan izləri aşkar edilib.

Cari il oktyabrın 25-də Elvin Həbibzadənin üzərində zorakılıq əlamətləri olan meyit Xəzər rayonunun Türkan qəsəbəsindəki evlərdən birinin qarşısındakı su quyusunda aşkar edilib və Fövqəladə Hallar Nazirliyinin müvafiq xilasetmə qüvvələri tərəfindən oradan çıxarılıb. Polis və prokurorluq orqanlarının əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupunun üzvləri məhkəmə-tibb ekspertinin də iştirakı ilə hadisə yerinə və meyitə baxış keçiriblər.

Faktla bağlı Binəqədi rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.

İlkin araşdırmalarla müəyyən edilib ki, Bakı şəhər sakini Səbuhi Ələkbərov yaxın qohumu Rəşad Fətullayevlə qabaqcadan cinayət əlaqəsinə girərək ailə-məişət zəminində yaranmış mübahisəni həll etmək məqsədilə Elvin Həbibzadənin idarə etdiyi "BMW" markalı avtomaşınla oktyabrın 15-də axşam görüş bəhanəsi ilə Qaradağ rayonunun Sahil qəsəbəsinə gəliblər.

Avtomaşında tərəflər arasında kəskin mübahisə yaranıb, E.Həbibzadə S.Ələkbərovun və ailəsinin ünvanına nalayiq ifadələr işlədərək avtomaşındakı bıçaqla onun sol əlinə xəsarət yetirib. Bu zaman S.Ələkbərov müqavimət göstərən sürücünün qollarını tutub və R.Fətullayev qayçı ilə arxadan boyun nahiyəsinə zərbə endirərək E.Həbibzadəni qətlə yetirib. Daha sonra hər iki şəxs izi itirmək məqsədilə meyiti həmin avtomobillə Xəzər rayonuna gətirərək burada S.Ələkbərovun babasına məxsus evin qarşısındakı quyuya atıblar.

Qeyd olunan ağır cinayət əməllərini törətdiklərinə əsaslı şübhələr olduğuna görə Səbuhi Ələkbərov və Rəşad Fətullayev Cinayət Məcəlləsinin 120.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə) maddəsi ilə oktyabrın 25-də şübhəli şəxslər qismində tutulublar.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***26 oktyabr 2019-cu il.***

# Oktyabrın 23-dən 29-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 125 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 27 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 120, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5, borclu şəxs qismində axtarışda olan 54 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 17 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 59 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

2030-cu ildə Rusiya polisində robot polislər xidmətə başlaya, dövlət yol hərəkət təhlükəsizliyi müfəttişliyi və miqrasiya xidməti bölmələrdəki kimi vətəndaşlara məsləhət verə biləcəklər. Onlar həmçinin barmaq izlərini götürəcəklər. Bu barədə istehsalçı şirkətin nümayəndəsi Konstantin Pokladok bildirib: "İndi biz "Rəqəmli polis" konsepsiyasını həyata keçirməyə çalışırıq və düşünürəm ki, 2030-cu ilə qədər bizdə robot polislər işləyəcəklər".

Qeyd edilir ki, "İnterpolitex" sərgisinin nəticəsinə görə şirkətlə Daxili İşlər Nazirliyi arasında müqavilə imzalana bilər.

Pokladokun sözlərinə görə, robotlar insanların kütləvi toplaşdığı yerlərdə iş üçün nəzərdə tutulub. "Bunlar müvafiq olaraq nəqliyyat polisi, dövlət yol hərəkət təhlükəsizliyi müfəttişliyi, miqrasiya bölmələridir. Bizim quraşdıra biləcəyimiz əlavə avadanlıqların köməyi ilə müxtəlif məsələləri həll etmək olar. İndiki halda barmaq izlərinin və sənədlərin skaneri qurulub, robot barmaq izini skanerdən çıxara və onu məlumat bazası ilə müqayisə edə bilər", - Pokladok qeyd edib.

*****

Ukrayna Ali Radası "Korrupsiyanı ifşa edənlərə münasibətdə "Korrupsiya xəbərdarlığı barədə" Ukrayna Qanununa dəyişikliklər edilməsi haqqında" Qanun qəbul edib.

Sənəd korrupsiyanı ifşa edənlərin hüquqi statusunu, onların hüquq və müdafiə təminatını müəyyən edir, həmçinin onları korrupsiya cinayəti barədə məlumatın aşkarlanmasında hüquqi məsuliyyətdən azad edir.

Pulun məbləği və ya dövlətə vurulan ziyanın miqdarı əmәkqabiliyyətli şəxslər üçün nəzərdə tutulan yaşayış minimumunu 5 min və daha çox dəfə üstələyən korrupsiya cinayəti barədə xəbər verən ifşaçı korrupsiya cinayəti predmetinin və ya dövlətə vurduğu ziyanın ölçüsünün 10 faizi həcmində mükafat almaq hüququna malikdir.

*****

Şimali Koreyada dünyanın qalan hissəsi üçün sürreal görünən çox şey var. Məsələn, adamların hərbi addımlarla işə getməsi və ya hamının oxşar saç düzümündən istifadə etməsi. Şimali Koreyada işıqforlar da yoxdur. Yol polisinə yalnız gözəl qızları götürürlər. Onlar əlindəki çubuqla nəqliyyatın hərəkətini tənzimləyirlər.

Pxenyanın təxminən 40 yerində qadın yol polislərini görmək olur. Hər adamı isə burada işə götürmürlər. Yol polislərinə yaşadıqları şəhərdə ayrıca mənzil verirlər. Onların qida təminatı da sıravi şimali koreyalılardan daha yaxşıdır. Şimali Koreyada yol polislərinin hətta gözəllik müsabiqəsi də var.

*C.Natiq*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00